Ulu Öndərin doğum günü münasibətilə silsilə tədbirlər keçirilmişdir

Ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü rayonlarda təntənəli şəkildə qeyd olunmuşdur. Bölgə müxbirlərimiz bu münasibətlə rayonlarda keçirilən tədbirlər haqqında xəbər verir.

Gəncə

Bir neçə gündür ki, ölkəmizin hər yerində olduğu kimi, Nizami yurdu ulu Gəncədə dahi şəxsiyyət, xalqımızın xilaskarı Heydər Əliyevin 92-ci ildönümü qeyd olunmuşdur. Bu tarixi günü bütün türk dünyası, müstəqil Azərbaycan yüksək təntənə, tükənməz sevgi və dərin ehtiramla qeyd edir. Gəncə Şəhər İcra Hakimiyyətinin, YAP şəhər təşkilatının nümayəndələri, hüquq-mühafizə, idarə və müəssisələrin rəhbərləri, ziyalılar, hər zaman doğma rəhbərindən diqqət və qayğı görən 10 minlərlə gənclər əlamətdar gündə üzlərində sonsuz sevinc və fərəh, əllərində təravətli gül-çiçək dəstələri Heydər Əliyev Mərkəzinə ulu öndərin əzəmətli abidəsi önünə toplaşmışdılar.

Təntənəli tədbir görkəmli bəstəkar Üzeyir Hacıbəyovun "Koroğlu" üvertürası və C.Cabbarlı adına Gəncə Dövlət Dram Teatrı aktyorlarının ifasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 92 illiyinə həsr olunmuş bədii kompozisiya ilə başladı. Sonra Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, şəhər rəsmiləri, idarə, müəssisə və təşkilatların kollektivləri, qonaqlar, ictimaiyyətin nümayəndələri dahi rəhbərin əziz xatirəsinə hörmət və məhəbbətin ifadəsi olaraq ulu öndərin abidəsi önünə təzə-tər gül-çiçək dəstələri düzdülər.

Sonra tədbir iştirakçıları möhtəşəm Heydər Əliyev Mərkəzində ulu öndərin mənalı ömür yolunu, doğma xalqına misilsiz xidmətlərini əks etdirən eksponatlara baxdılar.

Yevlax

Səhər tezdən Yevlağın hər tərəfindən insanlar şəhərin mərkəzinə – Heydər Əliyevin adını daşıyan prospektdə ulu öndərin abidəsinin qarşısındakı meydana axışırdılar. Şəhər rəhbərliyi, ziyalılar və ictimaiyyətin nümayəndələri böyük dövlət və siyasi xadim, vətənpərvər Heydər Əliyevin abidəsinə əklillər və tər çiçəklər qoyaraq, nurlu xatirəsini bir dəqiqəlik sükutla anaraq, dahi azərbaycanlıya öz ehtiramlarını bildirdilər. Sonra şəhərin hüquq-mühafizə orqanları, bələdiyyələr, sənaye müəssisələrinin, təşkilat və idarələrin, ictimai qurumların, özəl sektorun rəhbərləri, əmək veteranları və sakinlər ölkənin tərəqqisində, şəhərin inkişafında misilsiz xidmətləri olan bir şəxsiyyəti yad etmək üçün, dəstə-dəstə dahi şəxsiyyətin əzəmətli abidəsinin önünə gül-çiçək qoyaraq, onun ruhu qarşısında baş əyərək, dərin ehtiramlarını bildirdilər. Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Qoca Səmədov müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu kimi adını bəşər tarixinə həkk etmiş bu dahinin əməlləri və qoyduğu milli-mənəvi, ictimai-siyasi irsin əsrlər boyu müstəqil dövlətçiliyimizin inkişafına və tərəqqisinə xidmət edəcəyini, bizdən sonra gələn nəsillərin xoşbəxt və firavan yaşamasına misilsiz töhfə verəcəyini vurğuladı. Sonra iştirakçılar Heydər Əliyev Mərkəzinin geniş foyesində dahi şəxsiyyətin həyat və fəaliyyətinə dair stendlərə baxaraq, bir daha Azərbaycanın memarı və qurucusu ilə qürur duyduqlarını bildirdilər.

Goranboy

Gündən-günə çiçəklənən, inkişaf edib qüdrətlənən müstəqil Azərbaycan dövlətinin təşəkkül tapması, beynəlxalq aləmdə imzasının tanınıb qəbul edilməsi ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Unudulmaz dahi şəxsiyyət — türk dünyasının böyük oğlu müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur. Onun əziz xatirəsi bütün azərbaycanlılar üçün daim əzizdir, onun göstərdiyi diqqət və qayğı heç vaxt unudulmur, həmişə ürəklərdə yaşayır. Qədirbilən goranboylılar da dahi şəxsiyyət, müdrik rəhbərin Goranboy haqqında dediyi xoş sözləri bu gün də qürur və minnətdarlıq hissi ilə xatırlayır. Möhtəşəm Heydər parkında dahi şəxsiyyətin əzəmətli abidəsi önünə on minlərlə sakinlər ümummilli liderin əziz xatirəsini yad etmək üçün toplaşmışdılar.

Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev, rayonun dövlət rəsmiləri, idarə, müəssisə və təşkilatların kollektivləri ulu öndər Heydər Əliyevin meydandakı abidəsi önünə əklillər və tər çiçəklər düzərək sonsuz ehtiramlarını bir daha nümayiş etdirdilər. Rayon rəhbəri çıxışında vurğuladı ki, Azərbaycan xalqının ictimai-siyasi həyatında, dövlətçilik tarixində mühüm rol oynayan ümummilli lider adını qızıl həriflərlə Azərbaycan tarixinə yazmışdır. Qürur hissi keçiririk ki, Azərbaycana ulu öndərin layiqli siyasi davamçısı - Prezident İlham Əliyev kimi vətənpərvər, qətiyyətli, peşakar, yeni dünya siyasətinin incəliklərinə dərindən bələd olan, islahatçı və çevik lider rəhbərlik edir. Milyonların qəlbində yaşayan lider Heydər Əliyevin şərəfli və mənalı ömür yolu hər bir azərbaycanlı üçün layiqli örnəkdir.

Sonra Heydər Əliyev Mərkəzinin geniş foyesində ulu öndərin şərəfli həyat yolundan bəhs edən stendlərə baxış oldu. Tanınmış müğənnilərin ifasında geniş konsert proqramı iştirakçıların qəlbində xoş duygular yaratdı.

Naftalan

Naftalanlılar öz ənənələrinə sadiq qalaraq, yenə də füsunkar gözəlliyə malik olan Heydər Əliyev parkına toplaşmışdılar. İzdihamlı tədbirdə Şəhər İcra Hakimiyyətinin, YAP şəhər təşkilatının nümayəndələri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri ilə yanaşı, şəhər ictimaiyyəti, eləcə də şəhərə istirahət və müalicəyə gələn qonaqlar da iştirak edirdi.

İlk öncə möhtəşəm parkda Türk dünyasının fenomeni, Azərbaycanın xilaskarı və qurucusu, əbədiyaşar Heydər Əliyevin xatirəsinə ucaldılmış əzəmətli abidə ziyarət olundu, önünə əklillər, tər qərənfillər və gül-çiçək dəstələri qoyuldu, ruhuna dualar oxundu. Sonra sənətçilərin əl işlərindən ibarət sərgi iştirakçıları məftun etdi. Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Natiq Aslanov ulu öndərin şərəfli həyat yolundan geniş danışaraq qeyd etdi ki, müstəqil Azərbaycan ümummilli lider Heydər Əliyevin şah əsəridir.

Məktəblilərin məharətlə ifa etdiyi "Sönməyən günəş adlı" kompozisiyası iştirakçılar tərəfindən rəğbətlə qarşılandı. Respublika fənn olimpiadasında "Gümüş" medal qazanmış şagird Cəmilə Rzayevaya və onun fənn müəllimi Sədrəddin Muradova YAP şəhər təşkilatı tərəfindən diplomlar, eyni zamanda Yeni Azərbaycan Partiyasına yeni qəbul olunmuş gənclərə üzvlük vəsiqələri təqdim olundu.

Tədbir tanınmış müğənnilər tərəfindən geniş konsert proqramı ilə davam etdirildi.

Zabit XƏLİLOV,
"Respublika"

Zaqatala

Zaqatala rayonunda ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilmişdir.

Tədbirlərdə Zaqatala Rayon İcra hakimiyyəti başçısı Mübariz Əhmədzadə, hüquq-mühafizə orqanlarının rəhbərləri, YAP rayon təşkilatı fəalları və rayonun ictimaiyyət nümayəndələri iştirak etmişlər.

İlk öncə tədbir iştirakçıları Heydər Parkında ulu öndərin abidə kompleksini ziyarət etmiş, önünə tər çiçəklər düzmüş, Azərbaycanın dahi oğluna öz ehtiramlarını bildirmişlər.

Sonra Heydər Əliyev Mərkəzində "Heydər Əliyev fenomeni–zəfər və qalibiyyət rəmzi" mövzusunda elmi-praktiki konfrans keçirilmişdir. Konfrans Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlanmış, daha sonra ulu öndərə həsr olunmuş film nümayiş etdirilmişdir. Elmi-praktiki konfransda rayon icra hakimiyyəti başçısı Mübariz Əhmədzadənin geniş məruzəsi dinlənilmişdir.

Məruzədə rayon rəhbəri xalqımızın dahi oğlu, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın idarəçilik sükanı arxasına keçdikdən sonra qısa müddətdə milli dövlətçilik doktrinasını irəli sürərək onun sürətli icrasına başladığını, üzləşdiyi çətinliklərə, maneələrə, dövlət çevrilişi cəhdlərinə cəsarətlə sinə gərərək mübarizlik, əyilməz iradə, dəmir məntiq, özünə inam və siyasi uzaqgörənlik kimi iradi keyfiyyətlərdən məharətlə bəhrələnərək xalqımızı vətəndaş qarşıdurmasından, müstəqilliyimizi itirmək təhlükəsindən xilas etdiyini, müasir tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil olduğunu qeyd etmişdir. Daha sonra natiq ümummilli liderimiz Heydər Əliyev tərəfindən yaradılmış möhkəm təməl üzərində Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizin artıq dünyanın ən önəmli dövlətlərindən biri kimi tanındığını xüsusi vurğulamışdır.

Konfransda çıxış edən natiqlər həyata müstəqil Azərbaycan dövlətini yaratmaq missiyası ilə gələn ulu öndərimiz bütün həyatını Azərbaycana bəxş etdiyini, xalqımızın xoşbəxt gələcəyi naminə ömrünü xalqına bağışladığını qeyd etmişlər. Tədbirin sonunda rayon icra hakimiyyəti başçısı Yeni Azərbaycan Partiyasına yeni qəbul olunmuş gənclərə vəsiqələr, ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ərəfəsində keçirilən müsabiqə qaliblərinə mükafatlar təqdim etmişdir.

Sonra Heydər parkında gül bayramı keçirilmişdir. Bayramda müxtəlif gül kompozisiyaları, şəkil və plakatlar, əl işlərindən ibarət sərgilər nümayiş etdirilmişdir.

Elə həmin gün axşam Heydər Parkında rayonun incəsənət ustalarının iştirakı ilə böyük bayram konserti təşkil edilmişdir.

* * *

Muğanlı kənd körpələr evi-uşaq bağçasının əsaslı təmirindən sonra açılış mərasimi keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyəti başçısı Mübariz Əhmədzadə bağçanın balaca sakinlərini, onların valideynlərini əlamətdar hadisə münasibətilə təbrik etmiş, ölkəmizdə uşaqlara göstərilən qayğıdan danışmışdır. Ulu öndərimiz Heydər Əliyevin uşaqlara daim böyük sevgi və məhəbbət bəslədiyini xüsusi vurğulamış, bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin, habelə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın bilavasitə diqqət və qayğısı sayəsində ölkəmizdə uşaqların sağlamlıqlarının qorunması, təlim-tərbiyəsi və təhsili sahəsində mühüm tədbirlərin həyata keçirildiyini diqqətə çatdırmışdır. Mərasimdə Muğanlı kənd ağsaqqalı Aydın Abdurahmanov, bağçanın müdiri Firəngiz Əhmədova, valideynlər çıxış edərək uşaqların təlim-tərbiyəsinə göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirmişlər.

Uşaqların hazırladıqları bədii proqramdan sonra bağçaya baxış keçirilmişdir. Bağçada 55 uşaq təlim-tərbiyə alacaqdır. Dövlət vəsaiti hesabına təmir olunan bağça yeni inventar və avadanlıqla təchiz olunmuş, həyətində abadlıq işləri aparılmışdır.

* * *

Oğuz

Artıq neçə vaxtdır rayonda bu münasibətlə silsilə tədbirlər keçirilir. Bütün oğuzlular ümummilli liderə olan sonsuz məhəbbət və ehtiramlarını bildirir, onun memarı olduğu Müstəqil Azərbaycanın daha da çiçəklənməsi üçün var qüvvələri ilə çalışacaqlarını, dövlət və dövlətçiliyə sadiq olacaqlarını ifadə edirlər. Mayın 7-də Oğuz şəhərində rayon məktəblilərinin asfalt üzərində rəsm müsabiqəsində də bu bir daha parlaq ifadəsini tapdı. Gənc rəssamlar asfalt üzərində vətənə, torpağa, orduya, təbiətə məhəbbətlərini öz rəsmləri ilə bir daha göstərdilər, ulu öndər Heydər Əliyev ideyalarına sədaqətlərini nümayiş etdirdilər. Rayon təhsil şöbəsinin inspektoru Mahir Naxçıvanskinin təşkilatçılığı ilə keçirilən tədbirdə rayon icra hakimiyyəti başçısı Eyvaz Qurbanov, hüquq-mühafizə orqanlarının, ictimaiyyətin nümayəndələri iştirak etdirlər. İH-in başçısı Eyvaz Qurbanov müsabiqə iştirakçılarını və qalibləri salamladı. Tədbirin sonunda müsabiqə qaliblərinə mükafatlar və qiymətli hədiyyələr təqdim olundu.

Həmin gün şəhərdəki mədəniyyət mərkəzində Heydər Əliyevin anadan olmasının 92 illiyi münasibətilə elmi-praktik konfrans da keçirildi. İcra hakimiyyətinin başçısı Eyvaz Qurbanov elmi-praktik konfransı giriş sözü ilə açdıqdan sonra YAP rayon təşkilatının sədri Saleh Məhərrəmovun, rayon təhsil şöbəsinin müdiri Elçin Kərimovun, icra hakimiyyəti başçısının şəhər üzrə nümayəndəsi Firidun Baxışovun çıxışları dinlənilmişdir.

Axırda ulu öndərin 92 illiyi münasibətilə keçirilən müxtəlif idman yarışlarının qaliblərinə mükafatlar, YAP sıralarına yeni qəbul olunanlara partiya biletləri təqdim olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul edildi.

Rasim AMANOV,
" Respublika".

Şəmkir

Şəmkir Olimpiya Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibəti ilə Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Şəmkir Rayon Komitəsinin təşkil etdiyi stolüstü idman növləri üzrə yarışların final mərhələsi keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan həmkarlar ittifaqı rayon komitəsinin sədri A.Həsənov ümummilli lider Heydər Əliyevin yeni müstəqil Azərbaycanın banisi və qurucusu kimi dövlətçiliyimizin möhkəmlənməsi naminə gördüyü əvəzsiz işlərdən danışmış,qeyd etmişdir ki, biz xalqımızın yaddaşına əbədi həkk olunmuş Heydər Əliyevin hər il doğum gününü müxtəlif formatlı tədbirlərlə qeyd edirik. Stolüstü idman növləri üzrə yarışların keçirilməsi bu tədbirlərin tərkib hissəsidir.

Yarışlar tərtib edilən yarış qaydalarına və Əsasnaməsinin tələblərinə uyğun təşkil olunmaqla keçirilmişdir.Yeni Azərbaycan Partiyası Şəmkir Rayon Təşkilatından və rayon icra hakimiyyətindən dəvət olunmuş nümayəndələr yarışların açılışında iştirakçılara uğurlar arzulamaqla yarışların sonunda qalibləri təbrik etdilər.

Yekunda 3 idman növü üzrə 9 nəfər qalibə rayon komitəsinin pul mükafatı və Fəxri fərmanları verilmişdir.

Sonda yarış iştirakçılarına rayon komitəsinin sədri ümummilli liderin ideyalarını daha əzmlə həyata keçirmək işində uğurlar arzuladı.

* * *

Daşkəsən

Daşkəsən Rayon İcra Hakimiyyəti başcısının sərəncamına uyğun olaraq 4-6 may 2015-ci il tarixlərində Daşkəsən Rayon Gənclərinin Təlim və İstirahət Mərkəzində "Azərbaycan Polad İstehsalı Kompleksi" QSC-nin təşkilatçılığı, YAP Daşkəsən rayon təşkilatının, rayon Gənclər və İdman İdarəsinin və rayon Təhsil Şöbəsinin dəstəyi ilə ümummilli lider Heydər Əliyevin 92-ci ildönümünə həsr olunmuş ümumtəhsil məktəbliləri arasında şahmat üzrə rayon birinciliyi keçirilmişdir. Məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsini əbədiləşdirmək, Müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğunda Heydər Əliyev yaradıcılığının təbliği, rayonda idmanın kütləviliyinin təmin olunması və bu idman növünün inkişaf etdirilməsi, I Avropa Oyunlarına dəstəkdir. Yarışda 34 nəfər iştirak etmişdir. Gərgin keçən mübarizədən sonra I yerə A.Mürsəlov adına 2 saylı tam orta əktəbin şagirdi Məmmədli Elman Rahib oğlu, II yerə A.Mürsəlov adına 2 saylı tam orta məktəbin şagirdi Əsgərov Emin Arif oğlu, III yerə İ.Nəsimi adına 1 saylı tam orta məktəbin şagirdi Abbaszadə Qəzənfər Asəf oğlu, IV yerə A.Mürsəlov adına 2 saylı tam orta məktəbin şagirdi Alıyev Hətəm İftixar oğlu, V yerə İ.Nəsimi adına 1 saylı tam orta məktəbin şagirdi Abdullayev Vüqar Eldəniz oğlu layiq görülmüşdür. Qalib idmançılara və bütün yarış iştirakçılarına "Azərbaycan Polad İstehsalı Kompleksi" QSC-nin struktur vahidi "Daşkəsən Filiz Saflaşdırma" ASC tərəfindən qiymətli hədiyyələr təqdim olunmuşdur.

Eyvaz HƏMİDOV,
"Respublika".

Biləsuvar

Rayonda keçirilmiş yubiley tədbirlərində insanlar kütləvi şəkildə iştirak etmiş, ulu öndər Heydər Əliyevin xatirəsinə dərin ehtiram bəslədiklərini bir daha nümayiş etdirmişlər. İctimaiyyətinin nümayəndələri xoş bahar günündə rayon mərkəzindəki meydanlara axışaraq biləsuvarlıların həyatında çox mühüm rol oynamış, onlar üçün misilsiz işlər görmüş dünya şöhrətli rəhbərin doğum gününü şənliklərlə qeyd etmişlər. Ulu öndərin xatirəsi hörmətlə yad edilmiş, abidəsi önünə əklillər və gül dəstələri qoyulmuşdur. Şəhərdə keçirilmiş təntənəli yığıncağı rayon icra hakimiyyəti başçısı Mahir Quliyev açaraq demişdir ki, Heydər Əliyevin işıqlı xatirəsi hər bir biləsuvarlı üçün əzizdir. Bütün Azərbaycan xalqı kimi, Biləsuvar rayonunun sakinləri də dahi şəxsiyyətin adını həmişə uca tuturlar. Çıxış edənlər Heydər Əliyevin cahanşümul fəaliyyətindən, Azərbaycan xalqının tərəqqisində bu böyük şəxsiyyətin gördüyü tədbirlərdən söhbət açmışlar.

Salyan

Xalqımızın dahi oğlu Heydər Əliyevin doğum günü rayonda geniş qeyd olunmuşdur. Rayon mərkəzində keçirilmiş yubiley mərasiminə ictimaiyyətin nümayəndələri, əmək kollektivlərinin üzvləri, şəhərin sakinləri, məktəblərin şagirdləri gəlmişdilər. Mərasimdən əvvəl ulu öndərin xatirəsi yad edilmiş, onun abidəsi önünə əklillər qoyulmuşdur. Ulu öndərin anadan olmasının ildönümü ilə əlaqədar təntənəli yığıncaqda rayon icra hakimiyyətinin başçısı Tahir Kərimov geniş məruzə ilə çıxış etmişdir. O, Azərbaycanın memarı Heydər Əliyevin həyat və fəaliyyətindən danışaraq göstərmişdir ki, xalqımızın dünyaya bəxş etdiyi böyük vətəndaş, azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı, millətin firavanlığı və səadəti, müstəqilliyimiz uğrunda yorulmaz xadim Heydər Əliyevin milli dövlətçiliyimizin formalaşmasında və möhkəmlənməsində oynadığı rol danılmazdır. Bunun üçün indiki və gələcək nəsillər böyük insana həmişə minnətdar olacaqlar.

Cəlilabad

Rayonda dahi şəxsiyyət Heydər Əliyevin adı həmişə əziz tutulur, xalqımızın müstəqilliyi və gələcəyi uğrunda öz həyatını sərf etmiş Vətən övladının müqəddəs idealları nəsillərə nümunə göstərilir. Rayon mərkəzində təşkil olunmuş təntənəli mərasimdə rayonun rəhbərləri, ictimai təşkilatların nümayəndələri, idarə və müəssisələrin kollektivlərinin üzvləri, əmək və müharibə veteranları, məktəblilər iştirak edirdilər. Onlar ulu öndərin abidəsi önünə gül-çiçək dəstələri qoymuşlar. Rayon icra hakimiyyəti başçısı Əziz Əzizovun geniş nitqindən sonra mərasim iştirakçıları çıxış edərək ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi yola daim sədaqətli olacaqlarını bildirmişlər. Rayonun idarə və müəssisələrində, məktəblərdə xüsusi bayram tədbirləri təşkil olunmuşdur.

İmişli

Rayonda ulu öndərin xatirəsi dərin hörmət və ehtiramla anılmışdır. Bu məqsədlə şəhər, qəsəbə və kəndlərdə xüsusi tədbirlər keçirilmişdir. Rayon mərkəzində keçirilmiş təntənəli toplantıda rayon icra hakimiyyəti başçısı Vilyam Hacıyev xalqımızın şanlı oğlu barəsində geniş söhbət açmış, ulu öndər Heydər Əliyevin demokratik dövlət quruculuğu, iqtisadiyyatımızın yüksəlişi, insanların rifahı üçün həyata keçirdiyi tədbirlərdən bəhs etmişdir. Mərasimdə çıxış edənlər ulu öndərin qeyri-adi fəaliyyətinə yüksək qiymət vermiş, onun milli müstəqilliyimizin əldə edilməsində çox mühüm rolunu, gələcək nəsillər üçün nümunə olduğunu qeyd etmişlər. Rayonda keçirilən yığıncaqlarda ulu öndərin parlaq xatirəsi hörmətlə yad edilmiş, onun abidəsi önünə gül-çiçək dəstələri düzülmüşdür.

Neftçala

Rayonda ümummilli liderin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar təntənəli yığıncaq, musiqili tədbirlər keçirilmişdir. Rayon icra hakimiyyəti başçısı İsmayıl Vəliyev və çıxış edənlər demişlər ki, ulu öndər Heydər Əliyev respublikamızın davamlı inkişafının, ölkənin milli mənafelərinin, sosial-iqtisadi yüksəlişinin təmin edilməsində təkrarsız fəaliyyət göstərmiş, güclü islahatların banisi olmuşdur. Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra davamlı sabitlik və əminamanlıq bərqərar olmuşdur. Ona görə də dahi şəxsiyyətin adı unudulmayacaq, xalqın qəlbində əbədi yaşayacaqdır.

Beyləqan

Rayonda ölkəmizin tərəqqisi ugrunda mübarizədə çox mühüm işlər görmüş dahi Heydər Əliyev ad günü təntənə ilə qeyd edilmişdir. Təntənəli yığıncaq başlanmazdan əvvəl ulu öndərin abidəsi önünə tər gül-çiçək dəstələri, əklillər qoyulmuşdur. Mərasimdə rayon icra hakimiyyəti başçısı Vaqif Abdullayev və digər iştirakçılar xalqımızın qəhrəman oğlunun Azərbaycanın vətəndaşları qarşısında müstəsna xidmətlərindən söz açmışlar. Onlar qeyd etmişlər ki, ümummilli lider Heydər Əliyevin gərgin zəhməti sayəsində ölkəmizdə əsl vətəndaş cəmiyyəti bərqərar olmuşdur. Bayram tədbirləri rayonun bütün yaşayış məntəqələrində yüksək səviyyədə keçirilmişdir.

Ağcabədi

Rayonda ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş tədbirlər yüksək əhval-ruhiyyədə, keçirilmişdir. Mərasimə toplaşanlar ulu öndərin abidəsini ziyarət etmiş, dahi rəhbərə dərin ehtiram və sədaqətlərini bir daha nümayiş etdirmişlər. Rayon icra hakimiyyəti başçısı Şahin Məmmədov, rayon fəalları meydana toplaşanlar qarşısında çıxış etmişlər. Onlar vurğulamışlar ki, ümummilli lider Heydər Əliyevin yaratdığı sabitlik və əmin-amanlıq şəraiti üzərində bərqərar olan və respublika Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən müasir sosial-iqtisadi siyasət ölkəni keyfiyyətcə yeni inkişaf mərhələsinə çıxartmışdır. Bayram tədbirləri geniş konsert proqramları ilə müşayiət olunmuşdur.

Sabir MUSTAFAYEV,
"Respublika".

Ağstafa

Rayonun Heydər Əliyev Muzey-Mərkəzində ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibəti ilə möhtəşəm "Kitab və Gül Bayramı" keçirildi. Bayram tədbirində Ağstafa Rayon İcra Hakimiyyətinin məsul işçiləri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə, təşkilat kollektivləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.

İlk öncə Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev və rayon ictimaiyyətinin nümayəndələri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edərək abidə önünə gül-çiçək dəstələri qoydular.

Sonra Heydər Əliyev Muzey-Mərkəzinin önündə təşkil olunmuş geniş kitab və gül sərgisinə baxış keçirildi. Sərgidə həmçinin uşaq və yeniyetmələrin hazırladıqları rəsmlər və müxtəlif əl işləri sərgiləndi. Tədbir iştirakçıları sərgidə nümayiş etdirilən kitablarla tanış oldular. Burada öz mənalı ömrünü xalqına, onun azadlığı və firavanlığına bəxş etmiş ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunan yüzlərlə kitab, jurnal və elektron vəsaitlər nümayiş etdirildi. Rayon Mərkəzi Kitabxanasının işçiləri tədbir iştirakçılarına ayrı-ayrı əsərlər barədə qısa, konkret bilgilər verdilər.

Tədbirdə azyaşlı uşaqların və məktəblilərin ifasında şeirlər səsləndirildi. Ağstafa rayon Texniki Yaradıcılıq və Uşaq Yaradıcılıq mərkəzlərinin təqdim etdikləri əl işlərindən ibarət sərgilər də böyük marağa səbəb oldu.

Bayram tədbiri iştirakçıların mərkəzin foyesində ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən sənədli filmə tamaşası və mərkəzin muzeylərinə ekskursiyası ilə davam etdirildi.

Vəli VƏLİYEV,
"Respublika".

Lənkəran

Xalqımızın böyük oğlu, ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar rayonda silsilə tədbirlər keçirilmişdir.

Lənkəran şəhərinin Heydər Əliyev xatirə parkında keçirilən bayram tədbirinə Lənkəran şəhər icra aparatının rəsmiləri, rayonun idarə, müəssisə və təşkilatlarının, hüquq-mühafizə orqanlarının rəhbərləri, əmək kollektivlərinin və ictimaiyyətin nümayəndələri, hərbi hissələrin əsgər və zabitləri toplaşmışdılar.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov tədbir iştirakçıları ilə birlikdə ulu öndərin abidəsini ziyarət etmiş, abidənin önünə gül dəstələri qoymuşlar.

Sonra parkda respublikanın və rayonun tanınmış incəsənət ustalarının iştirakı ilə bayram konserti verilmişdir.

Mayın 10-da Heydər Əliyev xatirə parkında "Gül bayramı" keçirilmişdir. Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatlarının rəhbərləri və tədbirə toplaşanlar güllərdən hazırlanmış dövlət atributlarına, yubilyarın şəkillərinə, müxtəlif fiqurlara, mənzərələrə, tablolara, pannolara tamaşa etmişlər.

"Gül bayramı"nda rayonun fermerləri tərəfindən yetişdirilən gül dibçəkləri, təbii güllər nümayiş etdirilmişdir.

Tədbirdə balaca fidanların ifasında ulu öndərə həsr olunmuş şeirlər səslənmiş, rəqslər ifa edilmiş, şəhər uşaq rəssamlıq məktəbi şagirdlərinin rəsm əsərləri, mərkəzi kitabxana sistemi tərəfindən təşkil olunan kitab sərgisi nümayiş etdirilmişdir.

"Gül bayramı" hamıya xoş ovqat, əsl bayram əhval-ruhiyyəsi bəxş etmişdir.

Masallı

Masallı şəhərinin Heydər Əliyev Mərkəzində "Tarix yaradan dahi" mövzusunda konfrans keçirilmişdir.

Tədbir iştirakçıları əvvəl mərkəzin foyesində ulu öndərin həyat və siyasi fəaliyyətini əks etdirən fotostendlə tanış olmuşlar. Sonra mərkəzin konfrans zalında ümummilli liderin mənalı ömür yoluna həsr olunmuş film nümayiş etdirilmişdir.

Konfransı giriş sözü ilə Masallı Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov açmış, görkəmli dövlət xadimi, dünyaşöhrətli siyasətçi Heydər Əliyevin çoxşaxəli və şərəfli dövlətçilik fəaliyyətindən ətraflı danışmışdır. Bildirmişdir ki, Azərbaycanın müasir tarixinin 35 illik mərhələsi, müstəqil dövlətimizin dinamik inkişafı və dünya birliyində layiqli yer tutması ümummilli liderin adı və titanik fəaliyyətilə bağlıdır. İcra başçısı Heydər Əliyev ideyalarının bu gün də yaşadığını və onun apardığı mütərəqqi siyasətin Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirmişdir.

Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev konfransda məruzə edərək ümummilli liderin Vətən və xalq qarşısında müstəsna xidmətləri barədə söhbət açmışdır.

Konfransda Prezident təqaüdçüsü Şirvan Əbilov, Heydər Əliyev Mərkəzinin direktoru Dilbər İbayeva, Masallı şəhər 1 saylı tam orta məktəbin müəllimi Aygün Xəlilova, Rayon Ziyalılar Cəmiyyətinin sədri Qardaş Fətullayev, rayon veteranlar şurasının sədri Məmmədağa Şiriyev müdrik rəhbər, dahi şəxsiyyət Heydər Əliyevin həyat yolundan, Azərbaycanın bugünkü inkişafından söhbət açmışlar.

Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Ulu öndər Heydər Əliyevin zəngin irsi gənclər üçün örnəkdir" mövzusunda "Dəyirmi masa" keçirilmişdir.

Tədbirdə Masallı Rayon Gənclər və İdman İdarəsinin aparıcı məsləhətçisi Oktay Mütəllimov, "Dəfinə" məktəb-liseyinin tarix müəllimi, tarix üzrə fəlsəfə doktoru Mürvət Abbasov, gənclərdən Aysel Əzizli, Azər Mikayılov çıxış etmişlər.

Sonra gənclər Heydər Əliyev Mərkəzində ulu öndərin mənalı ömür yolunu əks etdirən sənədlərlə tanış olmuşlar.

Astara

Xalqımızın ümummilli lideri, dahi şəxsiyyət Heydər Əliyevin xatirəsini astaralılar daim əziz tuturlar. Ulu öndərin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar rayonda silsilə tədbirlər keçirilmişdir.

Ümummilli liderin adını daşıyan parka minlərlə astaralı toplaşmışdır. Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev, icra hakimiyyəti aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatların kollektivləri, rayon ictimaiyyətinin nümayəndələri Heydər Əliyevin abidəsi önünə əklil və gül dəstələri qoymuşlar.

Sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində dahi rəhbərin şərəfli ömür yolunun, dövlətçilik fəaliyyətinin müxtəlif mərhələlərini əks etdirən eksponatlara baxmışlar.

Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev ümumrayon tədbirini açaraq müdrik rəhbərin, görkəmli dövlət xadiminin Azərbaycan xalqı və dövləti qarşısında tarixi xidmətlərindən, titanik fəaliyyətindən danışmışdır.

Təcrübəli dövlət xadimi, bütün zamanların görkəmli siyasətçisi, dünya şöhrətli müdrik rəhbər Heydər Əliyev zamanın ən çətin və mürəkkəb sınaqlarından məharətlə keçərək müstəqil Azərbaycanı qoruyub inkişaf etdirmişdir. Ulu öndərin siyasi kursunu, ənənələrini ölkə Prezidenti cənab İlham Əliyev uğurla, yüksək işgüzarlıqla həyata keçirir.

Sonra Suparibağ kənd tam orta məktəbinin müəllimi Kəmalə Nəsirovanın məruzəsi dinlənilmişdir. Astara rayon mərkəzi xəstəxanasının həkimi Aliyə Cavadova, Heydər Əliyev Mərkəzinin əməkdaşı Elza Kazımova, əhalinin sosial müdafiə mərkəzinin direktoru Anar Baxşıyev, rayon mərkəzi kitabxanasının direktoru, YAP Astara rayon gənclər birliyinin sədri Tural Eyvazov, rayon gənclər və idman idarəsinin məsləhətçisi Fikrət Qafarov çıxışlarında ulu öndərin hakimiyyətdə olduğu hər iki dövrdə Astaranın inkişafına və astaralılara xüsusi diqqət və qayğı göstərdiyini bildirmişlər.

Sonra icra başçısı Qəzənfər Ağayev Yeni